# AMEA-nın iclasında bir sıra mühüm məsələlər müzakirə olunub

Aprelin 20-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) rəyasət heyətinin növbəti iclası keçirilib.

Əvvəlcə AMEA-nın prezidenti, akademik Akif Əlizadə gündəlikdəki məsələlər barədə məlumat verib.

Sonra A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Yaqub Mahmudovun "AMEA-da islahatlar və müasir mərhələdə Azərbaycan tarixinin aktual problemləri" mövzusunda məruzəsi dinlənilib.

Bildirilib ki, Prezident İlham Əliyevin çağırışları, tövsiyə və tapşırıqları ilə Tarix İnstitutu son illərdə fundamental tədqiqatlardan ibarət 300-dən çox əsər nəşr etdirib. Elmi araşdırmalar nəticəsində ermənilərin törətdikləri soyqırımlarını sübuta yetirən çoxlu sayda fundamental əsər və sənəd toplusu işıq üzü görüb, müxtəlif dillərə tərcümə olunaraq dünyada yayılıb.

Y.Mahmudov institutun "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsi çərçivəsində Azərbaycan tarixi ilə bağlı sənədlərin xarici ölkə arxivlərindən AMEA-ya gətirilməsi və tədqiqatlara cəlb olunması istiqamətində görülən işlərdən də söz açıb.

Mövzu ətrafında geniş müzakirələr aparılıb, müvafiq qərar qəbul olunub. Tarix İnstitutuna Azərbaycan tarixinin yeni nəşrinə hazırlıq işlərinin başlanılması, Zəngəzur, Göyçə, İrəvan, Borçalı, Dərbənd və başqa ərazilərin tarixinin araşdırılmasının daha da genişləndirilməsi, Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımlarının daha dərindən tədqiqi üçün xarici ölkə arxivlərindən sənədlərin ölkəmizə gətirilməsi işinin davam etdirilməsi və digər məsələlər barədə tapşırıqlar verilib.

Akademik A.Əlizadə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və onun həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının icra müddətinin başa çatdığını bildirib. Proqramın həyata keçirilməsi üzrə əlaqələndirici orqan kimi AMEA-nın müəyyənləşdirildiyini qeyd edən akademik sənədin icrasında bir sıra nazirliklər və tabeliyində elmi müəssisə olan dövlət qurumlarının da iştirak etdiyini vurğulayıb.

Müzakirələrdən sonra rəyasət heyəti strategiyanın icrasına dair hesabatın bəyənilməsi və onun AMEA-nın Ümumi yığıncağının müzakirəsinə təqdim olunması barədə qərar qəbul edib.

İclasda AMEA-nın Aqrar Elmlər Bölməsinin Biologiya və Tibb Elmləri Bölməsinə birləşdirilməsi məsələsi də müzakirə olunub. Akademik Akif Əlizadə multidissiplinar yanaşmaların prioritet elmi metod kimi qəbul olunduğu müasir şəraitdə biologiya və aqrar elmlər sahəsində aparılan tədqiqatların bir-birindən fərqli, iki ayrı bölmə tərkibində həyata keçirilməsinin bir sıra hallarda araşdırmaların pərakəndəliyinə, elmi əlaqələndirmənin lazımi səviyyədə həyata keçirilə bilməməsinə, kadr potensialının qeyri-effektiv istifadəsinə səbəb olduğunu qeyd edib. Məsələ ilə bağlı AMEA-nın Ümumi yığıncağı qarşısında vəsatət qaldırılması qərara alınıb.

Həmçinin, AMEA-nın İctimai Elmlər Bölməsinin strukturunda bəzi dəyişikliklər edilib. Qərara əsasən, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu Fəlsəfə İnstitutu, İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutu isə Hüquq İnstitutu adlandırılıb.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 18 fevral tarixli Sərəncamını xatırladıb. Bildirilib ki, sərəncama əsasən, AMEA-ya Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi ilə birgə yubileyə həsr olunmuş Tədbirlər Planının hazırlanması həvalə edilib.

Məsələ ilə bağlı müzakirələrdən sonra Tədbirlər Planı təsdiqlənib.

Sonra AMEA-nın illik Ümumi yığıncağının keçirilməsi məsələsinə baxılıb. Tədbirin aprelin 29-da keçirilməsi qərara alınıb.

İclasda bir sıra elmi-təşkilati və kadr məsələlərinə də baxılıb.

***AZƏRTAC***